Əzizli V.İ. ♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.29-34
UOT: 342.9

# İnzibati hüquqi rejimlər

**Xülasə:** Hər bir dövlət öz inkişafının müəyyən dövründə qabaqcadan görülməsi mümkün olmayan və qarşısı alınmadıqda cəmiyyətin həyatına mənfi təsir göstərə biləcək hadisələrlə rastlaşır. Bu cür hadisələrin qarşısının alınması üçün isə dövlətlər tərəfindən tətbiq edilən idarəetmə rejimləri inzibati hüquqi rejimlər adlanır. İnzibati hüquqi rejimlər həmçinin müəyyən xüsusi hüquqi qaydalar sistemi olduğuna görə bu rejimlərin tətbiqi zamanı insan hüquq və azadlıqlarının realizəsində müəyyən məhdudiyyətlərə rast gəlmək olar. Lakin bu məhdudiyyətlərin tətbiq olunması zamanı sui- istifadə hallarını aradan qaldırmaq və ya yol verməmək üçün onların əsaslandırılması, məhdudiyyətlərə yol verən zəruri halların göstərilməsi lazımdır. Bu məqalədə də həm milli qanunvericilikdə hansı inzibati hüquqi rejimlərin təsbit olunduğu, bu rejimlərin tətbiq olunma əsasları və qaydalarından bəhs ediləcək, yuxarıda qeyd edilən məhdudiyyətlərə səbəb olan müstəsna vəziyyət və zərurət anlayışları işıqlandırılacaqdır.

**Açar sözlər:** fövqəladə vəziyyət; hərbi vəziyyət; hüquqi rejim; müstəsna vəziyyət; zərurət.

Hüquqi rejim müəyyən fəaliyyət sahəsinin hüquqi tənzimlənməsini özündə ifadə edir və 3 yerə bölünür:

1. Ümumi hüquqi rejim məhz ümumi hüquq sahəsinin hüquqi tənzimlənməsi ilə xarakterizə olunur;
2. Universal hüquqi rejim ayrı-ayrı hüquq sahələrinin hüquqi vasitələrinin cəmidir;
3. Törəmə hüquqi rejim xüsusi fəaliyyət növləri əsasında yaradılır [1 , s. 324].

İnzibati hüquqi rejim isə imperativ metoddan istifadə edilməklə hüquq subyektlərinin mənafelərinin qorunması ilə bağlı hüquqi tənzimləmə vasitələrinin məcmusudur.

İnzibati hüquqi rejimlər tabeçilik prinsipi əsasında dövlət idarəetməsinin ayrı-ayrı sahələrində həyata keçirilir. Lakin inzibati hüquqi rejimlər onların mövcud olduğu zaman hüquqların realizə imkanları, rejimin tətbiq olunduğu ərazi, vaxt və s. görə fərqlənə bilər.

İnzibati hüquqi rejimlərin tətbiqi üçün normativ-hüquqi əsasların olması, təşkilati və maddi-texniki tədbirlərin tətbiqi vacibdir.

Normativ hüquqi əsaslar dedikdə, inzibati hüquqi rejimlərin tətbiq olunması barədə hüquqi aktın qəbul edilməsinin bu inzibati hüquqi rejimlərlə bağlı daha yüksək qüvvəli normativ hüquqi aktlarla əsaslandırması başa düşülür.

Təşkilati və maddi-texniki tədbirlər dedikdə isə inzibati rejimin tətbiqi üçün cavabdeh olan dövlət idarəetmə orqanının yaradılması, onların iş rejimi barədə məlumatlandırma və xüsusi inzibati hüquqi rejimlər zamanı yaranmış iqtisadi məsələlərin (məsələn, zərərçəkənlərə yardım göstərilməsi) həlli başa düşülür [2, s. 79].

Yuxarıdada qeyd etdiyimiz kimi əhəmiyyətinə və digər əlamətlərinə görə inzibati hüquqi rejimlərin müxtəlif növlərindən danışa bilərik. Məsələn, müddətinə davamlı və müvəqqəti, ərazi

♦ **Əzizli Vüsalə İldırım qızı** - Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının magistrantı (Azərbaycan). E-mail: vusalaazizli98@gmail.com

meyarlarına görə ölkəmiqyaslı, inzibati ərazi vahidi miqyaslı, ekoloji fəlakət zonası, təhlükəsizliyin təmin edilməsi və dövlət əhəmiyyətinə görə dövlət sərhədlərinin mühafizəsi rejimi, fövqəladə vəziyyət rejimi, hərbi vəziyyət rejimi, gömrük rejimi və s.

Elə inzibati hüquqi rejimlər var ki, onlar ölkənin bütün və ya ayrı-ayrı ərazilərində baş vermiş qabaqcadan görülməsi mümkün olmayan, sülhə təhlükə yaradan hadisələr nəticəsində tətbiq edilir və məqsədi normal idarəetmə fəaliyyətini bərpa etməkdən ibarət olur. Bu inzibati hüquqi rejimlər xüsusi inzibati hüquqi rejimlər adlanır. Bu cür adlanmanın səbəbi isə həm bu rejimlərin tətbiq olunması üçün yaranmış şəraitin xüsusiyyətlərinin digərlərindən fərqlənməsi, həm də onların müvəqqəti xarakter daşıması, bu rejimlərin tətbiq edildiyi zaman qanunvericiliyin və beynəlxalq hüququn yol verdiyi həcmdə bir sıra konstitusion hüquq və azadlıqların məhdudlaşdırılması və onlardan geriçəkilmədir.

Ölkəmizin qanunvericiliyində sadəcə üç növ xüsusi inzibati hüquqi rejim təsbit edilmişdir: fövqəladə vəziyyət rejimi və hərbi vəziyyət rejimi, karantin rejimi.

İndi isə bu rejimlər arasındakı fərqlərə nəzər salaq.

Əsas fərqlər kimi həmin rejimlərin tətbiq edilmə əsaslarını, rejimlərin qüvvədə olduğu zaman mövcud olan yeni idarəetmə qaydalarını və bu xüsusi inzibati rejimlərin tənzimləndiyi müddəaları göstərmək olar.

Fövqəladə vəziyyət rejimi dedikdə təbii fəaləktlər, epidemiya və başqa ekoloji böhran halları və ya ölkənin Konstitusiya quruluşunu zorla dəyişdirməyə yönəlmiş hərəkətlər, ölkədaxili iğtişaşlar zamanı yaranmış vəziyyətdən çıxış yolu tapmaq məqsədilə normal şəraitdə tətbiq edilməyən idarəetmə sisteminin və qaydaların həyata keçirilməsinə yol verən müstəsna hallar başa düşülür.

Hərbi vəziyyət rejiminin fövqəladə vəziyyət rejimindən əsas fərqli cəhəti onunölkəyə silahlı müdaxilə təhlükəsi olduqda, ərazinin bir hissəsinin faktiki işğalı və xarici dövlətlərin Azərbaycan Respublikasına müharibə elan etməsi zamanı tətbiq edilməsidir. Buna bariz nümunə kimi Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar ölkəmizdə hərbi vəziyyətin elan olunmasına dair Azərbaycan Respublikası Prezidentinin 27sentyabr 2020-ci il tarixli Fərmanını göstərmək olar.

Anglo-Amerikan hüquq sistemində fövqəladə vəziyyətin tətbiq edilməsinin tək məqsədi dövlət idarəetməsinin yenidən qurulması yolu ilə əvvəlki vəziyyəti bərpa etməkdir və bir sıra güc qüvvələrinin bir sıra hakimiyyət səlahiyyətlərini qanunauyğun şəkildə üstlənməsi tamamilə yaranmış vəziyyətin ehtiyacları ilə bağlıdır [6, s. 36].

Həm fövqəladə, həm də hərbi vəziyyət rejimi Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tətbiq edilir və həmin fərman imzalandığı andan 24 saat ərzində Milli Məclisin təsdiqinə verilir. Milli Məclisin növbədənkənar və ya növbəti sessiya dövrü olmasından asılı olmayaraq həmin fərmanın təsdiqi məsələsinə 48 saat ərzində baxılır və müvafiq qərar qəbul edilir.

“Hərbi vəziyyət” (martial law) ifadəsindəki “Hərbi” (martial) sözünün mənbəyi haqqında iki nəzəriyyə vardır. Birinci nəzəriyyənin tərəfdarları “Martial” sözünün “Marescallus” və ya “Mareschalk” sözlərindən götürüldüyünü iddia edirdilər. Belə ki, bu ifadələr kralın sabit xidmətçilərinə və onunordusuna rəhbərlik edən şəxslərə verilən adlar idi. Məhz buna görə də kralın ordusunun rəhbərləri və kralın daimi xidmətçiləri olan marşalların məsləhəti ilə elan edilən qaydalar hərbi vəziyyətin təsir dairəsinə düşürdü [6 , s. 37].

İkinci nəzəriyyənin tərəfdarları isə “martial” sözünün latınca “martialis” sözündən götürüldüyünü və “müharibə ilə bağlı” mənasına gələn, eyni zamanda müharibə ilahəsi olan Marsla

bağlılığını vurğulayırdılar. Frederic Maitland bu barədə araşdırma aparmıştarixçilərdən biri idi o, “hərbi vəziyyət” ilə bağlı nəzəriyyələrin ikincisinin tamamilə haqlı olduğunu vurğulamışdı. O qeyd edirdi ki, sırf sözlərin etimologiyası aspektindən baxsaq, marşalın müharibəylə heç bir əlaqəsi yox idi, onlar sadəcə kralın ordusunda olan atlara cavabdeh olan daimi qulluqçular idilər [4, s. 266].

Karantin rejimi isə son zamanlarda COVID -19 pandemiyasının bütün dünyanı ağuşuna alması nəticəsində demək olar ki, hər bir ölkədə sərtlik dərəcəsi fərqlənərək tətbiq edildi. Azərbaycanda da xüsusi karantin rejimi AR Nazirlər Kabinetinin 23 mart 2020-ci il tarixli Qərarı ilə 24 mart 2020-ci il tarixindən etibarən xüsusi karantin rejimi elan olunmuşdur və bu karantin rejimi NK-nın 24 fevral 2022-ci il tarixli 52 nömrəli Qərarı ilə 01 may 2022-ci ilədək davam edəcək [3].

Xüsusi inzibati-hüquqi rejim elan olunmuş ərazilərdə daimi və ya müvəqqəti yaşayan şəxslər özləri də xüsusi inzibati-hüquqi status əldə edirlər. Bu statusa isə rejim tətbiq edilən zonaya xüsusi giriş-çıxış, hərəkət və fəaliyyət göstəmə qaydaları, inzibati nəzarətin həyata keçirilməsi, inzibati məcburetmə təsir tədbirlərinin tətbiq edilməsi və s. daxildir.

Dövlətin təhlükəsizliyi baxımından ən əhəmiyyətli inzibati hüquqi rejimlərdən biri də dövlət sərhədinin mühafizəsi rejimidir. Bu rejim 3 elementdən ibarətdir:

1. Sərhəd rejimi- təyyarələrin hava fəzasına girməsi, hərbi gəmilərin ərazi sularında üzməsi və ümumilikdə dövlət sərhədinin keçilməsi qaydaları ilə bağlıdır.
2. Sərhədboyu rejim- vətəndaşların və ya başqa şəxslərin ölkəyə gəlməsi, ölkədən getməsi, motorlu və ya motorsuz gəmilərin ərazi və daxili sularda hərəkəti ilə bağlıdır.
3. Dövlət sərhədinin buraxılış məntəqələrində rejim isə sərhəd qoşunları və gömrük orqanları tərəfindən təmin edilən sərhəddən keçən hava, dəniz,dəmir yolu və başqa nəqliyyat əlaqəsinin həyata keçirilməsi ilə bağlıdır.

Bir sıra ingilis dilli ölkələrin təcrübəsinə müraciət etsək, görə bilərik ki, fövqəladə vəziyyət anlayışı bizim qanunvericilikdən fərqli iki mənada istifadə edilir: fövqəladə vəziyyət (state of emergency) və müstəsna vəziyyət (state of exception).

Hər iki vəziyyətin müəyyən hüquqi təsirləri vardır. Sözügedən ölkələrin tədqiqatçıları bu iki rejimin əsas təsirlərini bir tərəfdən qanunsuzluğun leqallaşdırılması mexanizmi olmasında, digər tərəfdən insan hüquqlarının pozulmasının onların əsas mahiyyətini təşkil etməsində görürdü. Bu fikirlər aşağıdakılarda öz əksini tapırdı.

Müstəsna və fövqəladə vəziyyət qanunsuzluğun leqallaşdırılması mexanizmləri kimi:

Avstriyalı hüquqşünas Hans Kelsen qeyd edirdi ki, cəmiyyətdəki hüquqi nizam məhz hüquq normalarının iyerarxiyasında öz əksini tapır. Bütün hüquqi normalar nəticədə üstün bir normadan qaynaqlanmalıdır. Ancaq bu iyerarxiyamüstəsna və fövqəladə vəziyyət tətbiq olunduğu zaman pozulur.

Fransız filosofu Jacques Derridanın “Qanun qüvvəsi: Hüququn mistik təməli nəzəriyyəsi” adlı kitabında da qanun qüvvəsi məhz qanunun toxunulmaz və müqəddəs hesab olunduğundan bəhs edilirdi. Fövqəladə və müstəsna vəziyyət kontekstində isə hər şey, hər bir hərəkət qanun qüvvəsini ala bilər. Bir fərman və ya bir qərar, onların ziddiyyət təşkil etdiyi qanuna uyğunlaşdırılmasına ehtiyac duyulmadan qanunvericiliklə yaradılmış bir qurumu ləğv edə bilər.

Fransada qanunsuzluğun leqallaşdırılması mexanizmləri 20-ci əsrin əvvəllərindən müşahidə olunurdu. Həmin dövrlərdə hər şey idarəetmə üçün idi, insanlar üçün demək olar ki müdafiə mexanizmləri yox idi. Hakimlərin isə şikayət edildiyi hallarda rolları iddiaçılara etməli olduqlarının sadəcə hüquqlarını həmin vəziyyətə qurban verməkdən başqa bir şey olmadığını xatırlatmaqdan ibarət idi.

Məsələn, Heyriès işi buna bariz nümunədir. Fransanın 22 Aprel 1905-ci il tarixli qanununun 65-ci maddəsinə görə, hər hansı bir məmur şəxsə qarşı tətbiq olunan sanksiyadan əvvəl onu məlumatlandırmalıdır. Bu qanunun tətbiqinin dayandırılması üçün 10 sentyabr 1914-cü il tarixli bir fərman qüvvəyə mindi. Bu vəziyyətin qurbanı olan Heyriès məhkəməyə müraciət etdi. Ancaq bir fərman və icra hakimiyyəti aktı bir qanunu, parlament aktını təxirə saldığına görə Heyrièsin müraciəti cavabsız qaldı. Məhkəmənin gəldiyi nəticəyə görə müstəsna hallarda idarəetmə orqanlarının insan hüquqlarını məhdudlaşdırmaq və onlardan geriçəkilmək də daxil olmaqla bütün hüquqları vardır.

Həmin dövrdə Fransada məhkəmələrin gəldiyi ümumi nəticə bundan ibarət idi ki, zərurətin (burada fövqəladə və müstəsna vəziyyət) qanunu yoxdur və o öz hüquqi əsasını özü yaradır.

Müstəsna və fövqəladə vəziyyətin digər zəif tərəfləri də vardır. Əsas zəiflik ondadır ki, zərurət hüquq mənbəyi deyil.

Zərurət hüquq mənbəyi deyil.

"Necessitas legem non habet." Hüquqi qaydaya müstəsna və ya fövqəladə rejimləri daxil etməyə çalışanlar üçün bu Latın sitatı "zərurətin heç bir qanunu yoxdur" mənasını verir. Bu konsepsiyanın tərəfdarlarının sırasında Santi Romano da var idi.

Məsələn, onun sözlərinə görə, zərurət yarandığı zaman qaydalara riayət etmək məcburiyyəti yoxdur. Bu vəziyyətdə zərurət qanunun pozulması üçün avtomatik bir azad etmə mexanizmini yaratmış olur. Beləliklə, zərurət, çərçivəyə salına və tənzimlənə bilməyən bir vəziyyət kimi düşünülür

Şübhəsiz ki, qanun hüquqi qaydaların ən yüksək və ən ümumi təzahürüdür. Lakin Romano qeyd edirdi ki, zərurətin qanuna zidd (və ya qanunsuz) olmasına dair fikirlər onun təbiətindən və orijinal xarakterindən irəli gəlir [5, s. 11].

**Biblioqrafiya**


1. Abdullayev E.İ. İnzibati hüquq. Dərslik. – Bakı: ABU, 2001. - 723 s.
2. Abışov V.G. İnzibati hüquq. Dərslik. – Bakı: ABU, 2009. - 277 s.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2022-ci il tarixli, 52 nömrəli Qərarı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/49195 (müraciət tarixi: 04.03.2022).
4. Frederic Maitland. Constitusional History of England. 1908. - 548 p.
5. Gerard Emmanuel Kamdem Kamga. State of emergency, state of exception: A critical investigation. University of Pretoria, 2010. - 45 p.
6. Md. Ershadul Bari. Martial Law in Bangladesh 1975-1979: Legal Analysis. University of London, 1985. - 459 p.

**Azizli V.I.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.29-34**
**UDC: 342.9**

## Administrative legal regimes

**Abstract:** Every state at a certain stage of its development encounters events that are unpredictable and, if not prevented, can have a negative impact on the life of society. In order to prevent such incidents, the regimes applied by the states are called administrative legal regimes. Due to the fact that administrative legal regimes are also a system of certain special legal rules, certain restrictions may be encountered in the application of these regimes in the exercise of human rights and freedoms. However, in order to eliminate or prevent abuses during the application of these restrictions, it is necessary to substantiate them and indicate the necessary circumstances that allow the restrictions. This article will also discuss which administrative legal regimes are established in the national legislation, the grounds and rules of application of these regimes, and the concepts of exceptional situation and necessity that cause the above-mentioned restrictions.

**Keywords:** state of emergency; martial law; legal regime; state of exception; necessity.

## References

1. Abdullayev E.I. Administrative law. Baku, ABU Publ., 2001, 723 p. (in Azerbaijani).
2. Abishov V.G. Administrative law. Baku, ABU Publ., 2009, 277 p. (in Azerbaijani).
3. Decision No. 52 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated February 24, 2022. Available at: https://e-qanun.az/framework/49195 (accessed: 04.03.2022) (in Azerbaijani).
4. Frederic Maitland. Constitusional History of England. 1908 1st edition, 548 p.
5. Gerard Emmanuel Kamdem Kamga. State of emergency, state of exception: A critical investigation. University of Pretoria, 2010. - 45 p.
6. Md. Ershadul Bari. Martial Law in Bangladesh 1975-1979: Legal Analysis. University of London, 1985. - 459 p.

♦ **Azizli Vusala Ildirim** - Master of the Department of Constitutional Law of Baku State University (Azerbaijan). E-mail: vusalaazizli98@gmail.com

**Азизли В.И.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.29-34**
**УДК: 342.9**

## Административно-правовые режимы

**Резюме:** Каждое государство в процессе своего развития сталкивается с непредсказуемыми событиями, способными оказать негативное влияние на жизнь общества. Режимы, применяемые государствами для предотвращения подобных инцидентов, называются административно-правовыми. В связи с тем, что административно-правовые режимы представляют собой систему определенных правовых норм, в применении этих режимов при осуществлении прав и свобод человека могут встречаться определенные ограничения. Однако в целях устранения или предупреждения злоупотреблений при применении указанных ограничений необходимо их обосновать и указать необходимые обстоятельства, допускающие введения ограничений.

Рассматриваются виды административно-правовых режимов установленных в национальном законодательстве, основания и правила применения этих режимов, а также понятия исключительной ситуации и необходимости, обусловливающие указанные выше ограничения.

**Ключевые слова:** чрезвычайное положение; военное положение; правовой режим; исключительная ситуация; необходимость.

## Библиография

1. Абдуллаев Э.И. Административное право. Учебник. – Баку, 2001. - 723 с. (на азерб. яз.).
2. Абышов В.Г Административное право. Учебник. – Баку, 2009. - 277 с. (на азерб. яз.).
3. Постановление Кабинета Министров Азербайджанской Республики № 52 от 24 февраля 2022 г. [Электронный ресурс]. Режим доступа: https://e-qanun.az/framework/49195 (дата обращения: 04.03.2022) (на азерб. яз.).
4. Frederic Maitland. Constitusional History of England, 1908 1st edition, 548 p.
5. Gerard Emmanuel Kamdem Kamga. State of emergency, state of exception: A critical investigation. University of Pretoria, 2010. - 45 p.
6. Md. Ershadul Bari. Martial Law in Bangladesh 1975-1979: Legal Analysis. University of London, 1985. - 459 p.

♦ **Азизли Вюсала Йылдырым кызы** – магистр кафедры Конституционное право, Бакинский государственный университет (Азеррбайджан). E-mail: vusalaazizli98@gmail.com